PARADIGMA, No.2, 2025, səh.1-11
https://doi.org/10.30546/30015.2025.2.101

# MƏMMƏD ARAZ YARADICILIĞINDA MİFOPOETİK OBRAZLARIN POETİK SEMANTİKASI

**E.T. Cavadova**
Azərbaycan Universiteti, Ceyhun Hacıbəyli, 71, Bakı, Azərbaycan
e-mail: elnura.javadova@student.au.edu.az

**Xülasə:** Məqalədə XX əsr Azərbaycan ədəbiyyatında özünəməxsus yaradıcılıq manerası ilə seçilən Məmməd Araz poeziyasında mifopoetik obrazların poetik semantikası təhlil edilir. Müəllifin yaradıcılığında rast gəldiyimiz müxtəlif obrazların – dağ, daş, ağac, su (Araz çayı) kimi obrazların semantikası araşdırılır, bu obrazların mifoloji yaddaşdan qidalanaraq bədii sözə çevrilməsi göstərilmişdir. Həmçinin məqalədə Azərbaycan ədəbiyyatında bədii mətnin daxilində özünü mühafizə etmiş mifoloji elementlərin araşdırılmasının aktuallığı əsaslandırılır.

**Açar sözlər:** Məmməd Araz, mifopoetika, poeziya, obraz.

## Giriş

Mifopoetika, ən sadə və zahiri mənada mif və ədəbiyyat arasındakı münasibətləri əhatə edir. Vikiversitetin mifopoetika barədə təqdim etdiyi ən ümumi və qısa tərif belədir: *“Mifopoetika – poetikanın fərdi yaradıcılığı əks etdirən əsərlərdə mifoloji struktur və obrazları öyrənən bölməsidir”* [11].

Mifologiya mədəniyyətin, eləcə də ədəbiyyatın təməli və ilkin formasıdır. Bu baxımdan, hər bir mətnin mifik köklərindən bəhs etmək mümkündür. Eyni zamanda, bəzi sənətkarlar öz əsərlərində qəsdən mifik obraz və motivlərdən istifadə edirlər. Beləliklə, mətndə mifin varlığı iki formada təzahür edir:

1. Müəllifin iradəsindən asılı olmayaraq mətndə mövcud olan mif. Bu, qeyri-şüuri və təhtəlşüurla əlaqəli mifik struktur kimi dəyərləndirilə bilər.
2. Müəllif tərəfindən mətnə daxil edilən mifik obraz, motiv (mifologem), ideya, mövzu və s.

Müəllif əsərində mifoloji motivlərə, obrazlara və ideyalara müraciət etməkdə tam sərbəstdir, bu isə birbaşa onun yaradıcı niyyətindən asılıdır. Belə bir müraciət zamanı müəllif mifopoetik ənənəyə əsaslanmış olur. Yazılı ədəbiyyatda bu ənənənin tədqiqi ilə poetikanın bir qolunu təşkil edən mifopoetika məşğul olur.

Mifopoetik ənənə prizmasından bədii mətnin təhlili, müəllifin milli ənənələrə bağlılıq dərəcəsini üzə çıxarmağa imkan verir. Filologiya elmlər doktoru, professor Asif Hacıyev yazır:

*“Mifologizm və folklorizm eləcə də bədii təfəkkürün, milli mentalitetin etnik xüsusiyyətlərinin ifadə üsullarından birinə çevrilib”* [9, s.7].

Professor Asif Hacıyevin də qeyd etdiyi kimi, ədəbiyyatımızda bədii mətn müəlliflərinin mifə müraciəti əsasən milli ənənələrə söykənir. Milli köklər və dəyərlərlə bağlı ideyaları öz əsərində əks etdirmək istəyən sənətkarlar, bu məqsədlə mifik obrazlar və motivlərdən istifadə edirlər. Bu isə öz növbəsində mifi müasir dövrdə milli kimliyi ifadə edən vasitə kimi təsdiqləməyə imkan yaradır. Bir qayda olaraq, mif istinasız milli ənənələrlə bağlıdır. Milliliyin əsasları və genetik əlaqələri birbaşa mifik mənbələrə söykənir.

Mif bəşər övladının yaratdığı bir fenomen olaraq, daim yaradıcı insanları öz sirli və sehrli mənalar dünyasına cəlb etmişdir. Qədim dövrdən başlayaraq, Azərbaycan ədəbyyatında, xüsusilə, Nizami Gəncəvinin “Xəmsə”sində mifik motivlərin varlığı, yaradıcı bədii düşüncə sahiblərinin miflə olan güclü əlaqələrinin göstəricisidir.

XX əsr milli poeziyasında yaradılan şeirlər, yalnız öz dövrünün ideologiyası və fəlsəfi düşüncəsi ilə deyil, eyni zamanda XX əsrə qədərki ədəbi-fəlsəfi baxışlar, mifik ideyalar, obrazlar, motivlər və təsəvvürlərdən də bəhrələnərək sosial düşüncənin bədii ifadə vasitəsinə çevrilmək imkanı tapmışdır. Poeziyanın bu cür məna və düşüncə təbii olaraq, milli şeirimizin köklərini araşdırmağa və buna görə də bədii düşüncənin ən dərin qatlarına enməyə təşviq edir: dünyanın fəlsəfi mahiyyətini, yer üzündə yaşamın əsasında duran prinsipləri, bütün kainat aləmini anlamaq ehtiyacı, zamanla daim yenilənən təsəvvürlər və rəmzlər aləminə müraciət etməyə və onları bədii düşüncənin gücü ilə dərk etməyə yönəldir. Müxtəlif sənətkarların şeirində mif onun mənəvi aləmi və düşüncə dünyası ilə uyğun olaraq mənalandığı üçün yalnız həmin şairin yaradıcılığına deyil, həm də milli ədəbiyyatın ümumi zənginləşməsinə xidmət etmişdir. Həm müasir poeziyada, həm də poeziyanın ümumi tarixində mif bədii mətnin strukturunda müxtəlif formalar və şəkillər şəklində mövcudluğunu qoruyur. Mif bu baxımdan mətn daxilində özünü obraz, motiv, mifologem, ideya kimi göstərə bilər.

Bütün bu deyilənləri “arxetip” adı altında ümumiləşdirmək mümkündür.

Arxetip – yunan sözü olub, mənası “ilk obraz”, “nümunə” deməkdir. “Arxetip” incəsənətdə ilkin obraz, orijinal, miflərin, folklorun və bütövlükdə mədəniyyətin özünün əsasında duran və nəsillərdən nəsillərə keçən ümumbəşəri simvollardır. “*Ədəbiyyatda isə “arxetip” folklor və ədəbi əsərlərdə tez-tez təkrarlanan obraz, süjet və motivləri bildirir”* [12].

Müasir Azərbaycan poeziyası dərin məna yüklü arxetipik simvolların zənginliyi və çoxşaxəli obrazlarıyla seçilir. Miflərin poeziyada, xüsusilə, XX əsr şeirində zaman-zaman üzə çıxması, bəzən mifik "naxışlar" (elementlər) formasında, bəzən isə dolğun məna xətti şəklində təzahür etməsi, ədəbiyyatla mif arasındakı münasibətlərin özünəməxsus xüsusiyyətləri ilə bağlıdır. XX əsr Azərbaycan poeziyası, məlum olduğu kimi, siyasi-ictimai hadisələr, ideoloji cərəyanlar və tarixi talelər baxımından olduqca mürəkkəb bir dövrü əhatə edir. Bu əsrin əvvəlində baş verən inqilablar, Azərbaycan Xalq Cümhuriyyətinin qurulması, 1920-ci ildən etibarən Şimali Azərbaycanın sovet dövrünə keçidi, bu epoxada müşahidə olunan etnik və siyasi dəyişikliklər, xüsusilə Azərbaycan türk xalqının milli köklərindən ayrılaraq Azərbaycan sovet xalqına çevrilməsi kimi taleyüklü hadisələr, bütövlükdə XX əsr Azərbaycan ədəbiyyatının dövrləşdirilməsi və təsnifatını olduqca çətinləşdirən kompleks bir fenomenə çevrilmişdir. XX əsr Azərbaycan poeziyasında mifopoetik ənənənin inkişafını bir proses kimi tədqiq etdikdə aydın olur ki, şeirdə mifopoetik arxetiplərin meydana çıxması təsadüfi xarakter daşımayıb, dövrün sosial-siyasi hadisələri və tarixi şəraiti ilə sıx bağlıdır. Məsələn, XX əsrin əvvəllərində bütün dünyanın həyatına dərin təsir göstərən Birinci Dünya Müharibəsi və inqilabların yaratdığı milli faciələr, vətəndaş müharibələri, aclıq, qəddarlıq kimi faktorlar alt qat şüur qatı ilə obrazların (mifoloji arxetiplərin) ön plana çıxmasına səbəb olmuşdur.

Bu baxımdan XX əsr Azərbaycan poeziyasında Məmməd Arazın yaradıcılığı dövrün dərin mənzərəsini təqdim edir, xalqın ruhunu, tarixi yaddaşını və mədəni dəyərlərini poetik obrazlarla yaşatdığını qeyd edə bilərik. Onun lirikasında coğrafi obrazların xüsusi yeri var. Bu obrazlar təkcə təbiətin, məkanın təsviri deyil, həm də xalqın tarixi yaddaşı, mədəni kimliyi və mənəvi dünyası ilə əlaqəlidir. Coğrafi obrazlar Məmməd Arazın şeirlərində bir tərəfdən ətraf mühitə bağlılığı göstərir, digər tərəfdən isə dərin mifopoetik semantikaya malikdir. Onun poetik düşüncə və təxəyyülünün mifik elementlərlə bağlılığı müəyyən mənada universal şüur fenomeni kimi qiymətləndirilə bilər. Yəni mifik elementlər insan şüurunun ilkin təbiətinə xas olan bir xüsusiyyətdir. Necə ki, bütün güzgülər gerçəklikləri müəyyən formada əks etdirir, eləcə də insan psixikası aləmi başlanğıc mərhələdə bir-birindən müstəqil şəkildə, lakin oxşar və uyğun obrazlarla təsvir etmişdir. K.Q. Yunqun nəzəriyyəsinə əsasən, bu obrazların strukturunu təşkil edən arxetiplər ilkin dövrlərdə sadə və primitiv təbiət elementlərindən formalaşmışdır. İnsan təbiət mənzərəsindən göy, yer, dəniz, od, günəş, dağ və digər elementləri seçib fərqləndirdiyi andan etibarən bu elementlər insan zehnində simvollar şəklində formalaşdırılmışdır.

Məmməd Arazın dünyaya gəldiyi andan etibarən bu aləmlə ilk ünsiyyəti Naxçıvanın təbiətində xüsusi yer tutan qaya (torpaq) elementləri ilə başlayır ki, bu da onun mifopoetik dünyabaxışının formalaşmasında mühüm rol oynayır.

Sənətkarın yaradıcılığında "daş", "dağ" arxetipinin və simvolunun mahiyyətində mifin metaforik gücü özünü göstərir. Bu obrazın təsir gücü və mənəvi dərinliyi şairin doğulub boya-başa çatdığı Naxçıvanın təbii landşaft xüsusiyyətləri ilə ayrılmaz şəkildə bağlıdır. Naxçıvanın sərt daş-qaya mənzərəsi onun yaddaşında və təxəyyülündə silinməz bədii obrazlara çevrilərək poetik motivlərin semantik dərinliyini və genişlənməsini təmin etmişdir:

Mən tale-bəxt oyununda naşıyam
Bu torpağın yumruq boyda daşıyam [4, s.186].

Məlumdur ki, türk ritual-inanc mətnlərində dağ ən mühüm arxetiplərdən biri kimi çıxış edir. Dağ mifik obraz olaraq folklorşünaslıqda hərtərəfli və əhatəli şəkildə araşdırıldığından, bu mövzuya yenidən toxunmaq istəməzdik. Lakin vurğulamaq lazımdır ki, M.Araz poeziyasında dağ-daş mifologemi geniş struktur çərçivəsinə və mənayaradıcı funksionallığa malikdir.

Əslində, Məmməd Araz poeziyasında geniş şəkildə təsvir olunan qaya, daş obrazının paradiqmatik modelini təmsil edir. Şairin mifopoetik təfəkküründə qaya obrazı dərin metaforik məna daşıyır. İsa Həbibəyli yazırdı: *"Şair qayalarla, daşlarla canlı ünsiyyət qurur, onu dilləndirmək, canlandırmaq yolu ilə fikrində ümumiləşdirdiyi estetik qayəyə uyğun özünü də o daşın bir parçası kimi hiss edir"* [5, s.114].

Bir qayaya söykənmişəm,
deyirəm kaş:
Bax beləcə daşa dönəm
yavaş-yavaş.
Taleyimi qayaların taleyinə
bağlayam mən.
Bircə insan düşüncəmi saxlayam mən [3, s.108].

Məmməd Arazın yaradıcılığına etnopoetik kontekstdə yanaşıldıqda, daş obrazının əsas yer tutduğu aydın olur. İnsanların daşdan yaranması və ya "daşa çevrilmə", "daş əcdad" anlayışları türk folklorunun sabit mifologemləri kimi çıxış edir. Bu, şairin "Məndən ötdü, qardaşıma dəydi..." şeirində də ifadəsini tapır:

Ey daşlaşan, torpaqlaşan, ulu babam!

Bu günümdən dünənimə uzaqlaşan, ulu babam! [3, s. 84].

Şairin yaradıcılığında dünyanın mifik əsasını təşkil edən stixiyalar təbii olaraq qarşılıqlı əlaqədədir: biri digərini doğurur, biri isə digərinın formasına transformasiya olunur. Stixiyaların hərəkətini əks etdirən mifin dialektikası, "Azərbaycan" adlı varlığın həyat dialektikasında davamlı şəkildə təzahür edərək onun mövcudluğunun əsas şərti kimi çıxış edir:

Azərbaycan – mayası nur, qayəsi nur ki...
Hər daşından alov dilli ox ola bilər [3, s.100].

"İnsan qayalar", "Ağlayan qayalar", "Ana yurdum hər daşına üz qoyum", "Daş harayı" və digər şeirlərində daş və qaya obrazlarının simvolikası öz köklərini mifik düşüncədən alır. Şairin fikrincə, qayaların və daşların dilini anlamaq, təbiətin dilini anlamaq deməkdir. Dünyanın və ümumilikdə varlığın bütün dərin mənası, ilkin stixiyalarda öz ifadəsini tapır:

Nə zamansa bu daşlarla
bir dil tapan tapılacaq –
Bu daşların, qayaların
keçmişini oyadacaq... [3, s.109].

Qayaların, daşların, odun və suyun ifadə etdiyi dil mifoloji dilin özüdür. Çünki bu təbiət elementləri mifik mətnlərdə insan kimi danışan və mövcudluğunu açıqlayan varlıqlara çevrilir.

M.Arazın əsərlərində dağ-daş obrazı ata və əcdad simvolu ilə birləşdirilir. Dağ (qaya, daş) əcdadları təmsil edir. Mifoloji obraz, adətən, hiperbolik xarakter daşıyır. Xalq, dağ obrazında öz gücünü, qüdrətini, qəhrəmanlığını və xarakterini nümayiş etdirir. M.Araz da mifoloji obrazın hiperbolik xüsusiyyətlərindən istifadə edir.

Sənətkarın mifopoetik düşüncə sistemində insanın və cəmiyyətin onu formalaşdıran obyektlə birləşməsi və ya eyniləşməsi anlayışı mühüm yer tutur. Bu obyekt ya dağ (daş, qaya), ya da ağac kimi təbiət elementləridir:

Vətən mənə oğul desə nə dərdim,
Mamır olub qayasında bitərdim [3, s.133].

Y.M.Lotman şeirin strukturunu analiz edərkən mifoloji amillərin poetik mətndə gizli, nəzərdən qaçan mənaların birləşdiyini qeyd edir: *"Poetik fiqurların dünya strukturuna uyğunluğu bir tərəfdən, ənənədən gəlirsə, digər tərəfdən, şairin psixoloji durumu ilə bağlı ola bilir"* [10, s.8].

Belə fikirləşirik ki, M.Arazın yaradıcılığında daş obrazı poetik simvol olaraq həm ənənədən gələn bir elementdir, həm də şairin dünyaya (daşa) bağlılığının xüsusi psixoloji vəziyyəti ilə

əlaqəlidir. Bu psixoloji əlaqənin başqa bir ifadəsi isə "daş ocaq" obrazı-simvoludur. Daş, məhz ocaq statusunda mifoloji müqəddəsliyə malik olur və sakrallıq qazanır:

Qara arxac dibindəki
Üçbucaq daş ocağım da
Ha közərir, ha yanırdı... [3, s.178].

Daş bəzi şeirlərdə fərqli dünyalar arasında vasitəçi və ya mediator funksiyasını yerinə yetirir. Eyni zamanda, o, ruhun yerləşdiyi bir məkan kimi də təmsil olunur:

Gözünü sıx,
Hansı daşda su yansa,
O daş altda Məmməd Araz yaşayır [3, s.101].

Qədim xalqların dünya modelinə dair baxışlarında ağac mühüm rol oynayırdı. Onlar ağacı yeraltı, yerüstü və göy dünyaları arasında bağ yaradan bir vasitə hesab edirdilər. İnanırdılar ki, ağacın kökləri yeraltı aləmə, gövdəsi yer üzünə, budaqları isə səma ilə bağlıdır. Qədim türk inanclarında, xüsusilə də şamanizmdə, dünya ağacı anlayışına görə Göy Tanrısı ilə əlaqə qurmaq üçün ən hündür ağac seçilirdi.

Müasir şairlərin poeziyasında da ağac kultuna müraciət edənlərə rast gəlirik. Xüsusilə türk dünyasının böyük şairi Nazim Hikmətin şeirlərindəki ağac sevgisini qeyd etmədən, bu mövzuda irəli sürdüyümüz fikirlər tamlıq qazana bilməz. Şairin özünü bir cəviz ağacına bənzətməsi də bunun bariz nümunəsidir:

Mən bir ceviz ağacıyam Gülhanə parkında,
Nə sən bunun farkındasın, nə polis farkında [6, s. 681].

Real gerçəklikdə Gülhanə parkında heç vaxt cəviz ağacı olmamışdır, lakin öz böyüklüyünü və ölümsüzlüyünü hiss edən şair bunu ifadə etmək üçün özünü ağaca bənzətməyə çalışmışdır.

Müasir şairlərin yaradıcılığında olan nümunələr ağac kultuna olan inamın hələ də qorunub saxlanıldığını təsdiqləyir. Bu baxımdan Azərbaycanın xalq şairi M.Arazın bir sıra əsərlərində ağac mövzusuna toxunması heç də təsadüfi deyil. Şairin müxtəlif əsərlərində təsvir olunan ağac obrazı, onun poetik ifadəsində ağacın bir həyat modeli kimi qəbul edildiyini göstərir. Bu isə M.Arazın ağac sevgisinin genetik köklərə malik olduğu qənaətinə gəlməyə imkan verir. Türk mifologiyasında isə ağac, müqəddəs hesab olunan və insanların tapındığı əsas kultlardan biri kimi qəbul edilirdi. Bu inanc sistemində ağac, həyatın davamlılığını, gücünü və ilahi bağlantını simvolizə edirdi. M.Arazın əsərlərində ağac mövzusuna tez-tez yer verməsi də məhz bu dərin mifoloji və mədəni köklərlə bağlı

ola bilər. Şairin göstərdiyi kimi, təbiəti və ağacı məhv edən insan, eyni zamanda, özünün də məhvinə səbəb olur. Yaş ağacın kəsilməsi, insan başının kəsilməsi ilə müqayisə olunur, çünki ağaclar da insanlar kimi dərd çəkir. Ağaclar, insanın qoşa biləyidir və onları qorumaq vacibdir:

Baş kəsməyin,
Ağacları yaş kəsməyin.
İnsanın qoşa biləyidi ağaclar! [1, s.6].

"Dədəm Qorqud səsləməsi" şeiri qlobal ekoloji problemlərin yaşandığı bir dövrdə bəşəriyyətə və insanlığa bir çağırışdır. Əsərin mərkəzindəki ağac obrazı, insan ilə birləşərək bəşərin keçmişini, bu gününü və gələcəyini simvolizə edir.

Azərbaycan mifologiyasında su ilkin yaradılışın əsas amillərindən biri kimi qəbul edilmişdir. Folklor və xalq yaradıcılığında Araz mövzusu geniş şəkildə işlənmişdir. Araz, ilk növbədə, su mənbəyi olaraq qəbul edilir və su ilkin həyatın və yaşayışın başlanğıcı olduğu üçün müqəddəs sayılır. Bu səbəbdən, xalqımız daim Araza müraciət edib, ondan kömək diləmişdir. Bu ənənə batindən gələn ilahi təlimatlar vasitəsilə səadət axtarışını simvolizə edir və səyyahların kəhkəşanları izləyərək məğribdən məşriqə doğru istiqamətlərini müəyyənləşdirməsi qədər dərin və mənalıdır:

Araz, Araz, xan Araz,
Can sənə qurban, Araz.
Ürəyimin dərdinin
Məlhəmisən, sən Araz [7, s.29].

Araz çayı vətənini, torpağını və elini ikiyə ayırmaq kimi ağır bir tale yaşadı. 1813-cü ildə Rusiyanın Azərbaycanın şimalını işğal etməsi ilə başlayan bu "tale" Araz çayının içində bir kədərə, bir nisgilə çevrildi və Azərbaycan türklərinin dərdinə dönüb onların həyatına təsir etdi. İki yüz illik ayrılığın gətirdiyi əzab Araz çayı haqqında çoxsaylı rəvayətlər, şeirlər və bayatıların yaranmasına səbəb oldu. Bu ağrı Araz adında rəmzləşdirilərək dərd, ələm, ayrılıq əlaməti kimi təsvir edilirdi.

Araz sahilində böyüyən şair, uşaqlıqdan bəri bu ayrılıq və kədəri eşitmiş, hiss etmiş və öz içində yaşamışdır. Bu nisgil və qəm, M.Arazın ürəyində ağrı ilə birlikdə doğulub, poetik misralara çevrilmiş, əzab və göz yaşı ilə yoğrulmuş beytlərə, qanla suvarılmış şeir nümunələrinə çevrilmişdir. Şair “Arazın nəğməsi” şeirində yazırdı:

Sən canlı tarixsən doğrudan, Araz,
Səsində min ildən qəm-qubar qalıb.

Sinəndə dil açan bu yanıqlı saz,
Ulu babalardan yadigar qalıb [2, s.157].

Araz çayı fəsillərin müxtəlif vaxtlarında bəzən guruldayan, bəzən sakit və səssiz, bəzən də lal-dinməz olurdu. Şair Arazın səsini babalarından miras qalan sazın səsinə bənzədirdi. Saz ustadının əlində sazın səsi zaman-zaman kükrəyir, rahatlayırsa, Araz da bəzən Koroğlu kimi nərə çəkir, Abbas kimi kədərli olurdu. Həm coşub sahilləri aşan, həm də zaman zaman sakit axan Araz, iki sevgiliyi ayıran hicran çayına bənzəyirdi. Árazın sularında ağlayan Leyli məhəbbəti, Məcnun arzusudur:

Səndə təmkinlik də, dəlilik də var,
Dağlarda pələngsən, düzlərdə quzu.
Bəlkə sularında dil açıb ağlar,
Leyli məhəbbəti, Məcnun arzusu? [2, s.158].

Professor Asif Hacıyev "Bayatı poetikası" kitabında yazır:*"Ümumən klassik irfani-fəlsəfi poeziyamızda vətən fərqli məzmun daşıyan, əsasən üç mənada işlənən anlayışdır – gerçək coğrafi vətən, məcazi cismani vətən, sakral ruhani vətən.İnsanın kamilləşməsi onun həqiqi olan ruhani vətənə qovuşması deməkdir. Coğrafi və cismani vətən müvəqqəti, fani məskəndir və insan ruhu üçün qürbətdir. Rəmzi məqamları keçərək səfər etməklə əsl vətənə yetişmək,insanın cismən bağlandığı ərzani aləmdən aralanaraq ruhsal rəbbani vətənə çatmaq,"həbsi-bədən"in əsarətindən qurtularaq "hüsni-əzəl"ə qovuşmaq olar. Buna görə də cismani dünyada insan qərib və kimsəsizdir, həyatı əzab və kədərdir, istəyi əsl vətənə, ruhani vətənə qovuşmaqdır" [8, s.199].* M.Arazın qəlbindəki Vətən sevgisi, əsasən Araz dərdi və Araz problemi ilə bağlı idi. Buna görə də şair, harada olmasından asılı olmayaraq, daim Arazı düşünür və onu xatırlayırdı. Moskva şəhərində istirahət edərkən və ya Moskva çayının sahilində gəzərkən belə, Araz çayının melodiyalarını eşidirdi. Arazın nəğmələri, sanki telli sazın melodiyaları ilə bir-birini tamamlayırdı; digər çayların sularında isə bu incəliyi və gözəlliyi duymaq şair üçün qeyri-mümkün idi:

Oxu, bir aram-aram,
Oxu, bir həzin-həzin,
Oxu, göylər uyusun,
Oxu, dağlar titrəsin...
Araz yadıma düşüb,
Hər teli min havalı,

O saz yadıma düşüb! [2, s.94].

"Araz yadıma düşüb" şeiri M.Arazın şair dostu Azərbaycanın cənubunda doğulmuş Söhrab Tahirə ithaf edilmişdir. Moskva çayının sahilində gəzdikcə şairin xəyalları Arazın sularında yuyunub durulurdu. Bu yerlər nə qədər cazibəli olsa da, Araz sahili qədər doğma deyildir. Şeirdə həm də cənub həsrəti vardır. Axı, Söhrab Tahir də Araz sahilindən vətənə qürbət kimi baxmağa məcbur edilmiş vətən oğludur.

Araz çayı M.Arazın poeziyasında mifopoetik yanaşmanın ən parlaq nümunəsidir. Araz çayı şairin yaradıcılığında sadəcə bir su hövzəsi olmaqdan daha çox ayrılıq, məhəbbət, həsrət və vətən sevgisi ilə əlaqələndirilir. Araz, şairin əsərlərində mübarizə və sarsıntılarla yoğrulmuş bir həyatın, eyni zamanda insanın milli kimliyini, mənsubiyyətini, keçmişini və gələcəyini simvolizə edir. O, həm də "Vətən" və "torpaq" anlayışları ilə sıx bağlıdır.

M.Araz Arazı bir geosiyasi sərhəd, ayrılıq nöqtəsi və kədər mənbəyi olaraq təsvir edərkən, eyni zamanda, bu çayın ruhunda yaranan dərin hissləri, zamanla formalaşan ağrıları və keçmişin itkisi ilə bağlı duyğuları da əks etdirir. Araz həm fiziki, həm də mənəvi bir sərhəd kimi, xalqın keçmişinə, köklərinə və identikliyinə dair hisslərin təcəssümünə çevrilir. Araz çayının keçdiyi coğrafi ərazilər həm də xalqın kollektiv yaddaşında, mədəniyyətində, dilində və mənəvi dünyasında izlər buraxan simvollara çevrilir. Beləliklə, Araz yalnız bir çay kimi görünməz; o, həm də keçmişin xatirəsi, gələcəyin arzusu və insanın öz kimliyini tapma mübarizəsinin əksidir.

Bununla yanaşı, şairin başqa əsərlərində də müxtəlif coğrafi obrazlar eyni dərəcədə mürəkkəb və zəngin mənalar daşıyır. Şairin yazdığı "dərə", "dağ" kimi obrazlar, həmişə insanın daxili mübarizəsi, təbiətlə olan əlaqəsi və zamanla bağlı duyğusal düşüncələrinin təcəssümü olur. Bu coğrafi məkanlar həm təbii mühitin bir hissəsi olaraq, həm də şairin öz həyat təcrübələrinin və milli mənsubiyyətinin ifadəsi kimi təhlil edilə bilər.

Nəticə etibarilə, Məmməd Arazın coğrafi obrazları, onun poeziyasını yalnız fiziki məkanların təsvirindən daha çox, təbiət və insan arasında qarşılıqlı əlaqə və bütövlükdə bir birini tamamlayan elementlər kimi təqdim edir. Bu yanaşma, şairin hər bir coğrafi təsvirini həm estetik, həm də fəlsəfi cəhətdən daha dərin və mənalı edir.

**Ədəbiyyat siyahısı**

1. “Azad Azərbaycan” qəzeti, 03 iyun 2011-ci il, səh.6.
2. Araz, M. Seçilmiş əsərləri. 4 cilddə, I cild. Bakı: Ozan, 2003, 348 s.
3. Araz, M. Seçilmiş əsərləri.2 cilddə, – c.1.M.Araz. Bakı: Lider nəşriyyat, 2004, 337 s.
4. Araz, M. Seçilmiş əsərləri. 2 cilddə, – c.2. – / M.Araz. – Bakı: Lider nəşriyyatı, – 2004, – 232 s.
5. Həbibbəyli, İ. Haqqın var yaşamağa / M.Arazın. Qayalara yazılan səs. – Bakı: Azərnəşr, – 1994, – 128 s.
6. Hikmət, N. Türk Edebiyatı, Ahmet Kabaklı. III. C. İstanbul: Türk Edebiyatı Vakfı Yayınları, 2004, s. 681.
7. Məmmədov, N. Vətən dərdi. Bakı: Nurlar, 2005, 240 s.
8. Hacılı, A. Bayatı poetikası: struktur, semantika, praqmatika. – Bakı: “Elm", 2019, – 242 səh
9. Гаджиев, А. Поэтика современной прозы / А.Гаджиев. – Баку: Мутарджим, – 1997. – 204 с.
10. Лотман, Ю.М. Анализ поэтического текста / Ю.М.Лотман. – Ленинград: Просвещение, – 1972. – 271 с.
11.https://ru.wikiversity.org/wiki/%D0%9C%D0%B8%D1%84%D0%BE%D0%BF%D0%BE%D1%8D%D1%82%D0%B8%D0%BA%D0%B0
12.https://ru.wikipedia.org/wiki/%D0%90%D1%80%D1%85%D0%B5%D1%82%D0%B8%D0%BF_(%D0%BF%D1%81%D0%B8%D1%85%D0%BE%D0%BB%D0%BE%D0%B3%D0%B8%D1%8F)

## POETICAL SEMANTICS OF MYTHOPOETIC IMAGES IN THE WORK OF MAMMAD ARAZ

**E.T.Javadova**

Azerbaijan University, 71 Jeyhun Hajibeyli , Baku, Azerbaijan

**Abstract.** The article analyzes the poetic semantics of mythopoetic imagery in the poetry of Mammad Araz, a distinguished figure in the Azerbaijani literature of the 20th century with his unique creative style. The semantics of various images that we encounter in the author's work -

such as mountain, stone, tree, water (Araz River) - is examined, and it is shown that these images are rooted in mythological memory and transformed into artistic words. Furthermore, the relevance of studying mythological elements that have been preserved within the artistic text in Azerbaijani literature is also substantiated.

**Keywords:** Mammad Araz, mythopoetics, poetry, image.